PARLAMENT SEÇKİLƏRİ - 2015

# Binəqədi rayonunda səsvermə prosesi şəffaf və demokratik şəraitdə keçirildi

## SEÇİCİ FƏALLIĞI BİR DAHA GÖSTƏRDİ Kİ, AZƏRBAYCAN VƏTƏNDAŞLARI ÖLKƏMİZDƏ GEDƏN DEMOKRATİK İSLAHATLARI YÜKSƏK QİYMƏTLƏNDİRİRLƏR

**Dünən 8 saylı Binəqədi birinci seçki dairəsində parlament seçkilərinin gedişini bir mətbuat işçisi kimi izlədik. Qeyd edək ki, günün ikinci yarısında olduğumuz 21 saylı seçki məntəqəsində seçici fəallığı hiss edilirdi. Seçicilərin sərbəst şəkildə və öz iradələrinə uyğun səsvermələri üçün məntəqədə yüksək səviyyədə şərait yaradılmışdı.**









Hər bir seçicini ilk növbədə seçki məntəqəsinin qarşısında qarşılayan məntəqə üzvü onların baş barmağına mürəkkəb vururdu. Təbii ki, bu prosesin özü də seçkinin şəffaf keçirilməsi üçün mühüm vasitələrdən biridir.

21 saylı məntəqə seçki komissiyasının sədri Mailə İsmayılovadan aldığımız məlumata görə, bu məntəqədə 1298 seçici səsvermə hüququna malikdir. Onlardan yüzdən çoxu ilk dəfə səs verən gənclərdir. Eyni zamanda, seçkilərdə yaşlı nəslin nümayəndələri də fəal iştirak edirlər. Saat 17.00-da artıq seçicilərin 60 faizi səs vermişdi.

Səsverməyə gələn seçicilərdən biri ilə söhbət etdik. Evdar xanım Sara Bayramova bildirdi ki, hər bir seçki ölkəmizin həyatında yenilikdir, inkişafdır: "Mən heç bir partiyanın üzvü deyiləm. Buraya platformasını və ictimai-siyasi fəaliyyətini bəyəndiyim namizədə səs vermək üçün gəlmişəm. Heç bir qanun pozuntusuna rast gəlmədim. Hər kəsin istədiyi namizədə səs verməsi üçün azad seçki mühiti mövcuddur."

Digər seçici Həsən Qasımov da seçki prosesinin normal və şəffaf keçirildiyini bildirərək vurğuladı ki, layiqli namizəd, seçicilərin səsini qazanan şəxs qalib olacaqdır.

Qeyd edək ki, məntəqədə beynəlxalq təşkilatların nümayəndələri də seçki prosesini izləyirdilər. Belə ki, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) təsisçisi və həmsədri Xose de Venesiya səsvermə prosesinin şəffaf və demokratik şəraitdə keçirildiyini bildirdi. Onun sözlərinə görə, Azərbaycan dövləti seçkidən seçkiyə demokratik islahatları davam etdirir və hüquqi dövlət quruculuğu istiqamətində yeni uğurlara nail olur.

Xose de Venesiya bildirdi ki, mən artıq bir neçə seçki məntəqəsində səsvermə prosesini izləmişəm. Tam əminliklə deyə bilərəm ki, bir çox ölkələr Azərbaycanın demokratik seçki təcrübəsindən nümunə götürə bilər. Mənim qəti qənaətim belədir ki, bu seçkidə seçicilər ən layiqli namizədlərini seçmək imkanındadırlar.



Ana Vətən Partiyasından olan müşahidəçi Mahirə Mahmudova da bildirdi ki, səsvermə prosesində heç bir qanun pozuntusuna rast gəlinməyib. Bütün proses demokratik və şəffaf keçirilib.

Qeyd edək ki, səsverməni digər xarici müşahidəçilər - türkiyəli millət vəkilləri Halil Ürün və Əhməd Öztürk də izləyirdilər. Onların da qənaətinə görə, səsvermə ədalətli və şəffaf şəkildə baş tutur.









DSK-nın 31 saylı seçki məntəqəsində də seçici fəallığını müşahidə etdik. Məntəqə seçki komissiyasının sədri Sadəgül Həsənova bildirdi ki, məntəqənin seçici siyahısında 1198 nəfər var. Saat 18.00-dək seçicilərin böyük əksəriyyəti iştirak edib. İndiyədək heç bir qanun pozuntusuna rast gəlinməyib. Seçicilərə normal şəraitdə səs vermələri üçün bütün şərait yaradılıb.

Qeyd edək ki, məntəqədəki seçkini İspaniyadan və Türkiyədən olan müşahidəçilər də izləyirdilər. Onlar da səsvermə prosesinin normal keçdiyini bildirdilər.

Burada seçici Sevinc Kərimova ilə həmsöhbət olduq. O bildirdi ki, artıq bir neçə seçkidə iştirak edib. Hər bir seçkidə demokratiyaya doğru ciddi irəliləyiş müşahidə edilir. Buna görə bir azərbaycanlı kimi sevinirəm. Bizə yaradılan belə şəffaf səsvermə prosesindən istifadə edərək namizədimizə səs verdik. İnanıram ki, mənim dəstəklədiyim namizəd böyük seçici dəstəyi ilə qələbə qazanacaqdır. Ona görə ki, onun siyasi nüfuzu və xalq arasındakı hörməti seçilməyə imkan verəcəkdir.

DSK-nın 39 saylı seçki məntəqəsində də seçici fəallığı olmaqla bərabər, seçki qutuları artıq dolmaq üzrə idi. Bu, bir daha deməyə əsas verir ki, burada da seçicilərin böyük əksəriyyəti artıq səsvermədə iştirak ediblər. Məntəqə seçki komissiyasının sədri Sənubər Əhmədova bildirdi ki, saat 17.00-dək 1300 nəfər seçicidən 65 faizi səs verib. Məntəqədə olan jurnalistlər və xarici müşahidəçilər səsvermə prosesinin şəffaflığından məmnun qaldıqlarını ifadə ediblər. 7 mənzilə daşınan qutular göndərilib.

Ümumilikdə səsvermə prosesini izləyərək bu qənaətə gəldik ki, Binəqədidə səsvermə prosesi mütəşəkkil və şəffaf şəkildə keçirilib. Buna görə də əminliklə demək olar ki, seçicinin etimadını qazanan namizədin qələbəsi şəksizdir.

**Xuraman İsmayılqızı,**
**Elçin Zaman,**
**Cavid Əkbərov**
***"İki sahil"***